**UOT: 069.014; 069.533; 069.295**

**Nigar Xan qızı Babaxanova**
**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: nbabaxanova@gmail.com**

# EKSPOZİSİYA FƏALİYYƏTİNDƏ RƏY KİTABININ ROLU VƏ ƏHƏMİYYƏTİ

**Xülasə:** Məqalədə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun çoxillik ekspozisiya fəaliyyətində, elmi-mədəni kommunikasiyalarında rəy kitabının rolu və əhəmiyyətindən bəhs olunmuşdur. İnstitutda 1959-cu ildən etibarən formalaşmış rəy kitablarının məzmunca təhlilinin nəticələri bu məqalədə ümumiləşdirilmişdir.

**Açar sözlər:** rəy kitabı, ekspozisiya fəaliyyəti, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu

**Giriş.** İstənilən ekspozisiya-sərgi fəaliyyətinin yekun məqsədi eksponatların təqdimatı və həmin təqdimata kənar münasibətin öyrənilməsidir. Bu cür münasibət auditoriyanın tələbini və ya təəssüratını, ekspozisiya təşkilatçısı və ya eksponat haqqında rəyini ehtiva edə bilər. Forma və məzmunundan asılı olmayaraq, istənilən muzey fəaliyyətinin inkişafı üçün kənardan qiymətləndirilmə olduqca vacib komponentdir. Fəaliyyətində ekspozisiya-sərgi işinə ciddi əhəmiyyət verən Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu da ziyarətçi rəyinin öyrənilməsinə və tədqiqinə böyük diqqət ayırır. Bu məqsədlə, institutun tarixi ekspozisiya zalında illərdən bəri rəy kitablarından istifadə olunur. Həmin rəy kitablarının məzmunca təhlili, kontent-analizi institutun çoxillik elmi fəaliyyətini ziyarətçilərin nəzər-nöqtəsindən qiymətləndirməyə və bir sıra tarixi-analitik nəticələrə varmağa imkan verir.

### Əlyazmalar İnstitutunun muzey funksiyası

İllərdir qədim əlyazmaları milli varlığımızın, milli kimliyimizin, tarixi yaddaşımızın bir hissəsi kimi qoruyub saxlayan AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu əvəzolunmaz və qiymətli bir xəzinədir. İnstitut yalnız qədim əlyazmaları toplayıb mühafizə və tədqiq edən elmi-tədqiqat müəssisəsi rolunu oynamır. Elmi-tədqiqat funksiyası ilə yanaşı, institutun daha 4 funksiyası: kitabxana-fond (saxlanc kimi fəaliyyət göstərmək və oxucu-tədqiqatçı tələbatını ödəmək səviyyəsində), bərpa-konservasiya (qədim əlyazmaların təmiri, bərpası və rəqəmsallaşdırılması səviyyəsində), təhsil (magistratura və doktorantura səviyyəsində) və muzey funksiyaları da vardır.

Bu mənada Əlyazmalar İnstitutu Azərbaycanda eyni zamanda həm elmi-tədqiqat və təhsil müəssisəsi, həm kitabxana, həm restavrasiya mərkəzi, həm də muzey kimi fəaliyyət göstərən bəlkə də yeganə təsisatdır.

Müasir dövrdə bu cür çoxşaxəli fəaliyyət göstərən müəssisələrin qarşısında bir sıra milli və qlobal, həmçinin, ilk baxışdan həlli mümkünsüz görünən çətin vəzifələr durur. Bir tərəfdən nadir və qiymətli əsərləri, əlyazmaları toplayan və öyrənən institut bu xəzinənin təhlükəsizliyini təmin etmək üçün kənar müdaxilədən təcrid olunmalı, digər tərəfdən isə bu dəyərlərin təbliği və tanınması naminə öz oxucu-tədqiqatçı auditoriyasına yaxınlaşmalı, qapılarını ziyarətçilərə açmalıdır. İnstitut bu iki əsas vəzifənin icrasını balanslı şəkildə yerinə yetirməklə, fonddakı inciləri həm məxfi və toxunulmaz hala gətirməyəcək qədər qoruyub mühafizə edir, həm də onları zərər görməyəcək həddə tədqiqatçılara, oxuculara, ziyarətçilərə çatdırır.

İnstitutun tarixinə nəzər saldıqda, məlum olur ki, müəssisənin fəaliyyət istiqamətlərindən biri kimi muzey funksiyasının işə düşməsi heç də əvvəlcədən düşünülmüş, qarşıya qoyulmuş ilkin məqsədlərdən olmamışdır. Bu funksiya kitabxana-fond və elmi-tədqiqat funksiyalarının bərqərar edilməsindən sonra subyektiv və obyektiv səbəblərin qovşağında meydana gəlmişdir. Əvvəllər kitabxana-fond, sonra isə elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərərkən, institutun auditoriyası yalnız peşəkar tədqiqatçılardan ibarət olduğundan, Azərbaycanın qədim əlyazmaçılıq mədəniyyətini, xəttatlıq, miniatür nümunələrini geniş kütləyə çatdırmaq imkanı məhdud idi. Doğrudur, fondlar əsasında mənbəşünaslıq, mətnşünaslıq, transliterasiya, biblioqrafiya fəaliyyəti aparan tədqiqatçıların bu araşdırmalar nəticəsində xeyli sayda əsərləri nəşr olunurdu. Lakin bir neçə nümunə istisna olmaqla, bu nəşrlər də sahəvi fəaliyyətin nəticəsi kimi, yalnız başqa tədqiqatlar üçün mənbəşünaslıq bazası yaradırdı. Belə olan təqdirdə həm institutun yerləşdiyi binanın tarixi-memarlıq xüsusiyyətlərini (əsasən də interyerini), həm də qədim əlyazma kitablarının elmi, bədii, tarixi məziyyətlərini geniş ziyarətçi auditoriyasına tanıtmaq zərurəti meydana gəldi. Beləliklə, institutun fondlarındakı ən qiymətli əsərlər, unikallığı ilə bütün dünyanın diqqətini cəlb edən əlyazma kitabları təkcə mütəxəssislərə deyil, eyni zamanda müxtəlif formalarda ictimaiyyətə də təqdim olunmağa başladı. Son 60 ildə uğurla həyata keçirilən bu cür sosial-mədəni fəaliyyət neçə-neçə gənc nəslin vətənpərvərlik ruhunda yetişməsinə, milli özünüdərkinə, ədəbiyyatımızın, tariximizin zənginliyindən bəhrələnməsinə rəvac vermiş, cəmiyyətin tarixi-mədəni yaddaşının formalaşmasına kömək etmişdir.

İnstitutdakı rəy kitablarının kontent-analizi və ziyarətçi statistikasının təhlili belə deməyə əsas verir ki, muzey funksiyasının işə salınması vasitəsilə ekspozisiyada qədim əlyazma mədəniyyətinin təbliği nə qədər kütləviləşdirilsə də, ziyarətçilərin tərkibində adətən olduğu kimi, məktəblilərin, tələbələrin və

digər qrupların sayı tanınmış, görkəmli şəxsiyyətlərin sayını üstələyə bilməmişdir. Başqa sözlə, institutun ekspozisiyası əsasən, görkəmli dövlət, elm və mədəniyyət xadimləri, cəmiyyətin sayılıb-seçilən ziyalıları, o cümlədən nüfuzlu əcnəbi qonaqlar tərəfindən ziyarət olunmuşdur. Bu isə ekspozisiyadakı rəy kitabına yazılmış fikirlərin, təəssüratların daha da qiymətli olmasına imkan vermişdir.

Yeri gəlmişkən qeyd etməliyik ki, Əlyazmalar İnstitutunun ekspozisiyası Azərbaycan əlyazmaçılıq sənətinin ən nəfis nümunələrinin müxtəlif formalarda (mulyaj, maket, mobil stend, orijinal eksponat, elektron təqdimat) sərgiləndiyi, vahid əşya-məkan sisteminə uyğunlaşdırılmış tarixi bir salonda yerləşir. Vaxtilə bu salonda Azərbaycan Cümhuriyyəti Parlamentinin ilk iclası keçirilmişdir (7 dekabr, 1918). Ümumiyyətlə, institutun yerləşdiyi bina isə 1901-ci ildə Azərbaycanın böyük xeyriyyəçisi, neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və maliyyə dəstəyi ilə tikilmiş, burada əvvəlcə Şərqin ilk Qızlar məktəbi, sonra ADR-in parlamenti, ardınca isə Azərbaycan SSR Ali soveti yerləşmişdir. Bütün bu faktlar, başqa sözlə, Əlyazmalar İnstitutunun həm qiymətli memarlıq abidəsi, həm tarixi bina, həm də qədim əlyazmalar muzeyi kimi mövcud ola bilməsi onu ziyarətçilər üçün daha maraqlı etmişdir. Bunun təsdiqini isə illər boyu institutu ziyarət etmiş yerli və əcnəbi qonaqların münasibətində, rəy kitabına yazdıqları fikirlərdə tapmaq mümkündür. Əlyazmalar İnstitutunda olduğu zaman Ümummilli lider Heydər Əliyevin, dünya şöhrətli türk şairi Nazim Hikmətin, xalq artistləri Müslüm Maqomayev, Tofiq Quliyev, Əfrasiyab Bədəlbəylinin, eləcə də Erix Fayql, Pol Teylor, İosif Braginski kimi tanınmış elm xadimlərinin, UNESCO-nun baş katibi Amadu Mahtar M'Bou, İslam ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESCO) baş direktoru Dr.Əbdüləziz bin Osman Əl-Tuveycri, Avstriyanın Xarici İşlər naziri Peter Yankoviç, İran İslam Respublikasının Prezidenti Əkbər Haşimi Rəfsəncaninin və digər neçə-neçə dəyərli ziyalının Azərbaycan əlyazmaları, kitabçılıq mədəniyyəti, tariximiz, əlyazma xəzinəmiz haqqında söylədikləri, rəy kitabına yazdıqları sözügedən yüksək münasibətin göstəricisidir.

**Ekspozisiya fəaliyyətində rəy kitabının rolu və əhəmiyyəti**

Ekspozisiya fəaliyyətində rəy kitabından istifadə ilk baxışda ziyarətçilərin tələb və təəssüratlarını öyrənmə vasitəsi kimi qiymətləndirilə bilər. Lakin Əlyazmalar İnstitutunda rəy kitabının rolu təkcə bununla məhdudlaşmır. Ziyarətçi rəylərinin əks olunduğu kitabın məzmunu eyni vaxtda bir çox təhlillərin aparılmasına imkan verir. Həmin imkanları sistemləşdirməklə, belə bir nəticəyə gəlirik ki:

– **Əlyazmalar İnstitutunun rəy kitabı ilk növbədə ziyarətçi münasibətinin göstəricisidir**. Rəy kitabına illər boyu yazılmış yazıların ümumi

təhlili belə bir qənaət formalaşdırır ki, buradakı fikirlər institutu ziyarətdən, onun tarixi binası ilə tanışlıqdan, özündə keçmişin ruhunu əks etdirən qədim əlyazmaları canlı və ya mulyaj şəklində görə bilməkdən, ekspozisiyanın düzgün quruluşundan, burada çalışan alim və mütəxəssislərlə ünsiyyətdən doğan təəssüratların, yaranmış hisslərin təzahürüdür. İnstitut rəy kitabının bu ipostasından bəhrələnməklə, bir növ öz tədqiqat və təqdimat imkanlarını, nailiyyətlərini qiymətləndirə, ictimai nüfuz səviyyəsini, eksponatların emosional-mədəni təsir yükünü və s. ölçə bilir. Kənardan bu cür yanaşmalar, düşüncə və baxışlar institutun işinə daha geniş və fərqli kontekstdən nəzər salmağa, bəzən fəaliyyət perspektivlərini görməyə belə, imkan verir. Məsələn, ABŞ alimi, Oksford Universitetinin professoru Nigel Palmer rəy kitabında belə yazır: *"Əlyazmalar İnstitutunun peşəkar heyəti ilə tanışlıq mənim üçün çox xoş oldu. Ümid edirəm ki, gələcəkdə bir daha Azərbaycana səfər etməli olsam, ilk gələcəyim yer məhz Əlyazmalar İnstitutu olacaqdır. Əminəm ki, siz müvafiq sahədə aparıcı beynəlxalq elm və təhsil müəssisələri ilə əməkdaşlıq edirsiniz. İstərdim ki, tezliklə Oksford Universiteti və onun Bodlean kitabxanası ilə də sıx əməkdaşlığa başlayasınız. Mən də bu sahədə əlimdən gələni əsirgəməyəcəyəm."* Zaman göstərdi ki, 2016-cı ildə institutda tədqiqat aparmış bir alimin yazdığı bu sətirlər sadəcə təəssüratların izharı deyilmiş; həmin fikir və arzular bir neçə ildən sonra Əlyazmalar İnstitutu ilə Bodlean kitabxanası arasında yaranacaq elmi əməkdaşlığın ilk carçısı imiş.

– **Rəy kitabı statistik hesabatlılıq və ziyarətçi auditoriyasının sosial-demoqrafik təhlil mənbəyidir.** Əlyazmalar İnstitutunun demək olar ki, bütün qonaqları bir qayda olaraq, rəy kitabına öz fikirlərini qeyd edirlər. Bu zaman onların ekspozisiyanı nə vaxt ziyarət etdikləri, tək və ya qrup halında gəldikləri, hansı ölkəni və ya müəssisəni təmsil etdikləri də rəy kitabında əks olunur. Ziyarətçilərin say və milli tərkibi ilə yanaşı, elmi-tədqiqat imkanlarını, yaş, cins tərkibini, danışdığı dili də rəylər və avtoqraflar vasitəsilə öyrənmək mümkündür. Rəy kitablarından alınan məlumata görə, 1959-cu ildən 2022-ci ilədək institutu və onun ekspozisiyasını 1505 nəfər, o cümlədən 32 xarici ölkədən 314 nəfər ziyarət etmişdir. Onların 21 faizini qadınlar, 79 faizini isə kişilər təşkil etmişdir. Ziyarətçilərin 13 faizi məktəbli və tələbələrdən, qalan hissəsi isə yuxarı yaş qruplarına aid şəxslərdən ibarət olmuşdur. İnstitutu ziyarətlərin 64 faizi elmi-tədqiqatçıların payına düşmüşdür. Rəylərin 23 faizi Azərbaycan, 77 faizi 30 xarici dildə yazılmışdır və s.

Ziyarətçi seqmentasiyasının bu kimi göstəricilərinə bələd olduqda, ekspozisiyanın tərkibini yeniləmək, müxtəlif sərgilərin quruluşunu müəyyənləşdirmək, eksponatları əhəmiyyətlilik dərəcəsinə görə fərqləndirmək imkanı yaranır.

- **Rəy kitabı tarixi mənbədir.** Əlyazmalar İnstitutunun son 60 ildəki rəy kitablarının hər biri həm də tarixi-mədəni qaynaqdır. Bu kitabdakı yazıların köməyi ilə institutun mədəni inkişaf tarixi, ekspozisiyanın ayrı-ayrı dövrlərdəki tematikası, keçmiş sərgilər, tədbirlər, fonddakı əlyazmaların unikallığı haqqında yardımçı məlumatlar əldə etmək, görkəmli qonaqların rəylərinə nəzərən institutun milli-mədəni inkişafdakı rolunu, cəmiyyətdəki yerini aydınlaşdırmaq və ümumiyyətlə, dövrün ictimai-siyasi, mədəni mühitini başqa-başqa təfəkkürlərin işığında izləmək mümkündür. Misal üçün bir neçə rəyi nəzərdən keçirək. Türkiyənin tanınmış ensiklopedisti və siyasətçisi F.Təvətoğlu 26 sentyabr 1967-ci ildə rəy kitabında belə yazır: *"...Digər türk millət vəkilləri və mətbuat nümayəndələri neft buruqlarını görməyə getdikləri bir vaxtda bizim kitab xəzinəsinə baş çəkməyimizi bir xoşbəxtlik sayıram".* İran alimi M.Şəbüstəri 9 avqust 1990-cı ildə yazır: *"İranda son zəlzələ hadisəsi ilə əlaqədar göstərdiyi maddi-mənəvi dəstəyə görə Azərbaycan xalqına minnətdarlığımızı bildirmək üçün bu ölkəyə səfər etmişik. Bu səfər zamanı Əlyazmalar İnstitutunda olduq. Burada qorunan İslam haqqında ərəb və fars dillərində nəfis əlyazmalar mənə və digər qonaqlara maraqlı idi".* 1992-ci il sentyabrın 2-də Türkiyədən gəlmiş Azərbaycan əsilli pedaqoq Güllü Akın yazır: *"Mən 1931-ci ildə indi Əlyazmalar İnstitutunun yerləşdiyi binadakı "Tağıyev Qızlar məktəbi"ni bitirmişəm və burada müəllimlik də etmişəm. Daha sonra Türkiyəyə köçüb orada 38 il müəllim işləmişəm. Hal-hazırda 80 yaşındayam və əhd etmişdim ki, Vətənimə gedib o torpağı öpəcəyəm və öpdüm də. Allaha çox şükürlər olsun ki, bu günləri gördüm. Bütün azərilərə qəlbən öz təşəkkürümü bildirirəm və hər kəsi bağrıma basıram".* Osmanlı tarixinin görkəmli tədqiqatçısı fransız şərqşünası Jan-Lui Bak isə 19 sentyabr 1997-ci ildə rəy kitabında yazır: *"Bakıdakı Əlyazmalar İnstitutunda "Baburnamə"nin Çağatay nüsxəsini tapmağım mənim üçün gözlənilməz oldu. Bu işdə məsul olan bütün şəxslərə öz təbrik və təşəkkürlərimi bildirirəm".* Misal çəkdiyimiz bu və digər rəylərdə institutun fəaliyyətinə, əlyazma xəzinəsinin unikallıq səviyyəsinə verilən qiymətin, tarixi-mədəni hadisələrin, nümunəvi vətənpərvərlik mövqeyinin, Azərbaycanın hətta ən ağır tarixi dövrlərdə belə, humanizm ideyalarına sadiq qaldığının inikasını görürük.

- **Rəy kitabı – unikal avtoqraflar, əl yazıları mənbəyidir.** Əlyazmalar İnstitutunun rəy kitabının belə demək mümkünsə, müəllifləri əsasən, dövrünün sayılıb-seçilən, tanınmış dövlət, elm və mədəniyyət xadimləri olduğu üçün onların xətt nümunələri, avtoqrafları da özü-özlüyündə çox qiymətli bir məxəzdir. Zaman ötdükcə, bu avtoqrafların elmi-mədəni, tarixi əhəmiyyəti daha da artır. Nazim Hikmətin, Tofiq Quliyevin, Müslüm Maqomayevin, Əfrasiyab Bədəlbəylinin rəy kitabına düşmüş avtoqrafları Əlyazmalar İnstitutunun zəngin avtoqraf xəzinəsinin əvəzolunmaz inciləridir.

Qeyd etmək yerinə düşər ki, müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının inkişaf etməsinə, onlayn rəyalma imkanlarının olmasına baxmayaraq, institutun rəy kitabının hələ də kağız daşıyıcıda təqdim edilməsi məhz orijinal xətt nümunələrini, avtoqrafları toplamaq ənənəsini qorumaq məqsədindən irəli gəlir. Ehtimal etmək olar ki, gələcəkdə respublikadakı bütün muzeylərin və ya ekspozisiyası olan müəssisələrin rəy kitabları tamamilə onlayn formada olsa belə, Əlyazmalar İnstitutu rəyalma işini məhz ənənəvi qaydada davam etdirəcəkdir. Çünki yazı mədəniyyətinə sadiqlik institutun başlıca elmi-mədəni prinsiplərindən biridir. Burada bir haşiyə çıxaraq qeyd edək ki, institutun rəy kitabı məqsədli şəkildə virtuallaşdırılmasa da, ekspozisiyanın başqa sahələrində rəqəmsal texnologiyalardan geniş istifadə olunur: sərgi salonunda yerləşdirilmiş interaktiv informasiya köşkündə qədim əlyazmaların flipbook texnologiyasına əsaslanan virtual sərgisi keçirilir, institut və ekspozisiya haqqında 3 dildə audiovizual materiallar çatdırılır və s. Ümumiyyətlə, rəy kitablarının müxtəlif aspektlərdən araşdırılması ilə bağlı elmi ədəbiyyatın [1-3, 5-6] təhlili belə deməyə əsas verir ki, yaxın gələcəkdə rəyalma prosesi texnoloji cəhətdən xeyli dəyişəcəkdir. Belə ki, ekspozisiyada quraşdırılmış xüsusi monitorlarda onlayn sual-cavab şəklində, təqdim olunan muzey xidmətini bəyənib-bəyənməmə (like-dislike) formasında rəylərin öyrənilməsi ilə yanaşı, mətni klaviaturanın köməyi ilə virtual rəy kitabına və ya qələmlə sensor ekrana, qrafik planşetə yazmaq ənənəsi də formalaşacaqdır.

Əlbəttə, onlayn rəyalma prosesinin, ənənəvi rəyalma prosesinə nisbətən üstünlükləri çoxdur, lakin bununla belə, düşünürük ki, müəyyən zaman ötdükdən sonra institutun kağız əsaslı rəy kitabları tamamilə lazımsız olmayacaqdır, əksinə, onların tarixi abidə kimi rolu və əhəmiyyəti yuxarıda cızdığımız çərçivələri xeyli aşacaqdır. Bəlkə də uzaq gələcəkdə qədim əlyazma kitablarına çevriləcək həmin rəy kitablarının kağızı və cildi də, rəylərin yazıldığı qələmin mürəkkəbi də tədqiqat obyekti olacaq, mətnləri filoloji cəhətdən araşdırılacaq, yaxud texnologiyası hələ bizə məlum olmayan başqa tarixi-elmi araşdırmalara məruz qalacaqdır. Bu mənada rəy kitabının ənənəvi formada davam etdirilməsinin də öz üstünlükləri vardır. Madeo və b. [4] hesab edir ki, ümumiyyətlə, rəy kitabı ancaq kənar nəzərlə ekspozisiya fəaliyyətini qiymətləndirmək, üstünlükləri, əyri-əskikləri görmək vasitəsi deyil. Rəy kitabının məqsədi ekspozisiya haqqında məlumat alan, dinləyən (passiv) ziyarətçini, ekspozisiya haqqında danışan, yazan (aktiv) ziyarətçiyə çevirmək və bununla da muzeylə ziyarətçi arasında özünəməxsus dialoq yaratmaqdır [4, s.470]. Ziyarətçinin dinləyən birisindən, yazan birisinə çevrilməsi əl ilə yazmaq vərdişlərinin klaviatura tərəfindən sıxışdırıldığı müasir texnologiya dövründə xüsusi əhəmiyyət daşıyır. Rəy kitabına qələmlə yazı yazmaq, yazdırmaq bir növ

gələcəyə körpü salmaqdır, sonrakı nəsillərlə danışmaqdır. Kim bilir, bəlkə də tarixin hansısa yeni bir dövründə əl ilə yazmaq mədəniyyəti aşınarkən, keçmiş sayılacaq XXI əsrin epistolyar, kalliqrafik izləri məhz bu kimi rəy kitablarında tapılacaq.

**Nəticə.** Əlyazmalar institutu tarix qarşısında, gələcək nəsillər qarşısında məsuliyyət daşıyan bir elm məbədi kimi mürəkkəb fəaliyyət strukturuna malikdir: o bir yandan, min bir zəhmət bahasına toplanılmış, tədqiq olunmuş, sistemləşdirilmiş qədim əlyazma irsini göz bəbəyi kimi qorumalı, kənar nəzərlərdən uzaq tutmalı, başqa yandan isə qədim əlyazmalar vasitəsilə Azərbaycanın zəngin elmi-mədəni, tarixi irsini tanıtmalı, təbliğ etməli və bu məqsədilə açıq muzey rolunda çıxış etməlidir. İllərdir ki, bu istiqamətdə sınanmış, elmi cəhətdən əsaslandırılmış müvazinətli yanaşmaları rəhbər tutan İnstitut artıq muzey-ekspozisiya fəaliyyətində böyük təcrübə toplamışdır. Bu təcrübənin ayrılmaz tərkib hissələrindən biri də ziyarətçilərin rəyini öyrənmək, onları bir çox aspektlərdən tədqiq və təhlil etməkdir.

Tematik, sosial və elmi-statistik təhlil rəy kitablarının rolunu və əhəmiyyətini aydınlaşdırmaq üçün vacib komponentdir. Bu təhlillərin nəticəsi bir daha göstərir ki, institutun ekspozisiya fəaliyyətində rəy kitabı böyük əhəmiyyət daşıyır: o, ziyarətçi münasibətinin göstəricisi kimi, statistik hesabatlılıq vasitəsi kimi, auditoriyanın sosial-demoqrafik təhlil mənbəyi kimi, tarixi-mədəni qaynaq kimi, unikal avtoqraflar və əl yazıları məxəzi kimi əvəzolunmazdır.

## Ədəbiyyat siyahısı:

1. Booth B. Understanding the information needs of visitors to museums // Museum Management and Curatorship. – 1998. – Vol. 17. – No. 2. – pp. 139-157.
2. Livingstone P., Pedretti E., Soren B.J. Visitor comments and the socio-cultural context of science: Public perceptions and the exhibition a question of truth // Museum Management and Curatorship. – 2001. – Vol. 19. – No. 4. – pp. 355-369.
3. López X. et al. The presence of Web 2.0 tools on museum websites: a comparative study between England, France, Spain, Italy, and the USA //Museum management and curatorship. – 2010. – Vol. 25. – No. 2. – pp. 235-249.
4. Magliacani M., Madeo E., Cerchiello P. From ‘listener’ to ‘speaker’ museum visitors: guest book as a means of dialogue // Museum Management and Curatorship. – 2018. – Vol. 33. –No. 5. – pp. 467-483.

5. Шестак О.В. Рабочая тетрадь: «Книга отзывов как бюджетный и энергосберегающий инструмент исследования и формирования имиджа музея»: методическое пособие // Барнаул, МБУ ДО ДШИ «Традиция», «Этнографическая музейная мастерская «Лад».- 2018.- 25 с. 3.
6. Шорина Д.Е., Шестак О.В. Книга отзывов как инструмент исследования и формирования имиджа музея // Ценности и смыслы. 2017. № 4 (50). С. 106–113.

**Нигяр Хан кызы Бабаханова**

## РОЛЬ И ЗНАЧЕНИЕ КНИГИ ОТЗЫВОВ В ЭКСПОЗИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ

**Резюме.** В статье рассматривается роль и значение книги отзывов в многолетней экспозиционной деятельности и научно-культурных коммуникациях Института рукописей имени Мухаммеда Физули НАНА. В статье обобщены результаты контент-анализа книг отзывов, формировавшихся в Институте с 1959 года.

**Ключевые слова:** книга отзывов, экспозиционная деятельность, Институт Рукописей имени Мухаммеда Физули НАНА.

**Nigar Xan gizi Babakhanova**

## THE ROLE AND SIGNIFICANCE OF THE GUEST BOOK IN EXPOSITION ACTIVITY

**Summary:** The article discusses the role and significance of the guest book in the long-term expositional activities and scientific- cultural communications of the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. The article summarizes the results of the content analysis of the guest books that have been formed at the Institute since 1959.

**Key words:** guest book, exposition activity, Institute of Manuscripts named after Muhammad Fizuli of ANAS.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: filologiya elmləri doktoru, professor Gülşən Əliyeva - Kəngərli**